# Qazaxda “Damcılı mağarası” haqqında yeni nəşrin təqdimatı






**ADA Universitetinin Qazax Mərkəzində "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən Damcılı mağara düşərgəsində 2016-2023-cü illərdə yaponiyalı və azərbaycanlı arxeoloqlardan ibarət beynəlxalq ekspedisiya tərəfindən aparılmış tədqiqat işlərinə və nəticələrinə həsr olunmuş "Damcılı mağarası: tarix, arxeologiya və mədəniyyət - yeni nəşrlərin təqdimatı" adlı tədbir keçirilmişdir.**

Qeyd edək ki, 2015-ci ildə yaponiyalı və azərbaycanlı arxeoloqlardan ibarət böyük bir heyət, dünya əhəmiyyətli irs nümunəsi olan Damcılı mağara düşərgəsini kompleks tədqiq etmək üçün qoruq ərazisinə dəvət olunmuşdur. Həmin il AMEA Arxeologiya və Antropologiya İnstitutu, Tokio Muzey Universiteti və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti - "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu tərəfindən uzunmüddətli beynəlxalq memorandum imzalanmışdır.

2015-2023-cü illəri əhatə edən beynəlxalq əməkdaşlığın nəticəsi olaraq 2025-ci ildə iki mühüm kitab çap olunmuşdur. Onlardan biri - İngiltərədə "Oxbow Books" nəşriyyatında çap olunan "Damcılı Mağarası. Cənubi Qafqazda Son Pleystosendən Holosen Dövrünədək Bəşəriyyətin Tarixinin Tədqiqi" (Damjili Cave: Investigating the Late Pleistocene to Holocene Human History in the Southern Caucasus) adlı nəşrdir. Bu kitab Yaponiya tərəfindən arxeoloji tədqiqatlara rəhbərlik etmiş professor Yoşihiro Nişiaki və Azərbaycan tərəfindən tarix üzrə fəlsəfə doktorları Azad Zeynalov və Yaqub Məmmədovun həmmüəllifliyi ilə hazırlanmışdır. İkinci kitab isə Yaponiyada professor Yoşihiro Nişiaki və Səadət Əliyevanın həmmüəllifliyi ilə "Damcılı mağara düşərgəsi - Qazax, Azərbaycanda yüz min illik tarix" (Damjili Cave - A Hundred Thousand Years of History in Gazakh, Azerbaijan) Azərbaycan və ingilis dillərində çap edilmişdir. Hər iki kitabda qazıntılar zamanı əldə olunan arxeoloji materiallar, tətbiq edilən tədqiqat metodikası və əldə edilən nəticələr ətraflı şəkildə təqdim olunmuşdur.

Beynəlxalq əməkdaşlığın yekununa və arxeoloji qazıntıların nəticələrinə həsr edilmiş iki kitabın təqdimatı ilə bağlı tədbirdə Damcılı mağarasının tarixi əhəmiyyəti, aparılan qazıntılar, tədqiqat prosesi və əldə olunan elmi nəticələr, buradan aşkarlanmış maddi-mədəniyyət nümunələrinin Azərbaycan arxeologiyasında rolu, həmçinin beynəlxalq elmi əməkdaşlığın əhəmiyyəti vurğulanmışdır.

Tədbirdə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları, Yaponiya Tokio Muzey Universitetinin direktoru, yaponiya tərəfindən arxeoloji tədqiqatlara rəhbərlik etmiş professor Yoşihiro Nişiaki və digər yaponiyalı arxeoloqlar, AMEA Arxeologiya və Antropolgiya İnstitunun arxeoloqları, Qazax Rayon İcra Hakimiyyətinin nümayəndələri, Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən "Avey", "Keşikçidağ", "Qədim Şəmkir Şəhəri", "Gəncə", "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət qoruqlarının əməkdaşları, ADA Universiteti Qazax Mərkəzinin və Bakı Dövlət Universitetinin Qazax filialının professor-müəllim heyəti, mədəniyyət və təhsil işçiləri, digər ziyalılar iştirak etmişdir.

Tədbirin sonunda qonaqlar qoruğun Damcılı filialına ekskursiya etmiş, burada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış eksponatlar sərgilənmişdir. Sərgidə müxtəlif dövrlərə aid daş alətlər, keramika nümunələri və digər maddi-mədəniyyət nümunələri nümayiş olunmuşdur.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 13 avqust (№ 168).- S.15.